Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# KTMT çərçivəsində yeni Qarabağ prosesi başlanır - Ermənistanın əleyhinə, Azərbaycanın xeyrinə, Rusiyanın dəstəyilə...



**Azərbaycan rəsmi səviyyədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) müşahidəçi statusu almaq üçün hər hansı müraciət etməsə və bu istiqamətdə heç bir addım atmasa da, bu məsələnin gündəmə gətirilməsi Ermənistanda böyük təşviş yaratmaqda davam edir.**

İrəvanda belə hesab edilir ki, Azərbaycan hansısa formada KTMT-də təmsil olunsa, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın mövqeləri daha da zəifləyəcək. Çünki münaqişə yenidən aktiv fazaya keçəcəyi təqdirdə Ermənistan hansısa formada KTMT-dən, xüsusən də Rusiyadan yardım ala biləcəyinə hələ də ümidlər bəsləyir. Amma digər KTMT üzvləri Ermənistanın bu niyyətlərinin qətiyyən reallığa söykənmədiyini dəfələrlə qəsmi mövqeləri ilə nümayiş etdiriblər.

Digər tərəfdən reallıqda görünən budur ki, Ermənistandan fərqli olaraq, digər KTMT üzvləri, xüsusən də Rusiya Azərbaycanı təşkilatın sıralarında görmək istəyir. Rusiya baş nazirinin müavini Yuri Borisov və KTMT-nin baş katib əvəzi Valeri Semerikovun Azərbaycanın təşkilata müşahidəçi kimi üzv ola biləcəyinə dair son açıqlamaları da bunu təsdiq edir. Belə durum isə Ermənistan tərəfindən böyük hiddətlə qarşılanır. Bu ölkənin Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan iddia edir ki, İrəvanın razılığı olmadan Azərbaycanın KTMT-də müşahidəçi statusu alması ilə bağlı hər hansı bir rəy yalnız rəy səviyyəsində qalacaq. Amma Rusiya mediası yazır ki, Moskva istədiyi təqdirdə Ermənistanın buna qarşı çıxması sadəcə mümkün olmayacaq. Məsələ ilə bağlı "regnum.ru" portalı yazır: "Moskva Cənubi Qafqazda bələdləmə aparır. İstisna deyil ki, o, Dağlıq Qarabağ münaqişəsini tənzimləməkdə siyasi praktikanın yeni yanaşmalarını tətbiq etməyə hazırlaşır. Rusiyanın hərbi ekspertləri ideya səsləndiriblər ki, Azərbaycan və Ermənistanın KTMT-də iştirakı "iki ölkə arasında silahlı münaqişə risqini azalda bilər".

Rusiya baş nazirinin birinci müavini Yuri Borisovun İrəvanda hərbi-iqtisadi əməkdaşlıq üzrə Dövlətlərarası komissiyanın XVII toplantısında "Rusiya Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında müşahidəçi statusu almağına qarşı deyil" və "bu təkcə Azərbaycana aid deyil" bəyanatı sensasiya kimi qəbul edilir. Ermənistan baş verənlərdən çox narahatdır. Xatırladaq ki, Ermənistan parlamentinin xarici əlaqələr üzrə komissiyası lap bu günlərdə KTMT nizamnaməsinə təşkilatla münasibətləri dərinləşdirmək istəyən ölkələr üçün müşahidəçi statusu nəzərdə tutan düzəliş qəbul edib. Ermənistanın müşahidəçi ilə bağlı narahatlığı aşağıdakından qaynaqlanır: Bakıya belə bir status verilə bilərmi. Bütün əlamətlərə görə, Moskva durumu yoxlayır. KTMT baş katibi vəzifəsini icra edən Valeri Semerikov durumu şərh edərək sıradakı şəkildə fikir bildirib: "Müşahidəçi, tərəfdaş, üzv olmaq haqda bütün bəyanatlar, yaxud ərizələr müəyyən edilmiş şəkildə KTMT katibliyinə daxil olmalıdır. Məndə Azərbaycandan heç bir ərizə yoxdur. Məsələyə baxılmayıb. Kimsə haradasa tribunadan fikir deyib, şəxsi düşüncəsini ifadə edib". Amma fikrimizcə, Borisovun bəyanatını, çətin ki, siyasi improvizasiya saymaq olar. Onda İrəvan və Bakıya açıq "siqnallar" var. Birincisi: Moskva İrəvana KTMT-ni "antiazərbaycan yönündə" siyasiləşdirmək, bu qurumu öz maraqlarının girovuna çevirmək imkanı verməz. İkincisi: Bakı KTMT-də müşahidəçi statusu almaq istəyi göstərsə, belə bir təşəbbüs dəstəklənəcək. Nəhayət, maraq doğuran üçüncü siqnal. KTMT-yə qayıtmaq ideyası əvvəllər Azərbaycan hökuməti tərəfindən səslendirilibsə - düzdür, ancaq müxtəlif ekspert mülahizələri səviyyəsində - indi bu haqda Rusiyanın yüksək məqamlı məmurları danışmağa başlayıb. Niyə? Sanki öz-özünə ağla gələn nəticələrdən birinin mənası belədir: Rusiya özünün Cənubi Qafqaz siyasətinin bəzi cizgilərini təftişə başlayaraq bu mərhələdə hələlik ancaq Ermənistanın "məxməri inqilabı"na münasibətini sərgiləyir.

O biri yandan, "Paşinyan hökumətinin indiyədək İrəvan və Moskva arasındakı strateji ittifaqı şübhə altına qoya biləcək heç bir ifadə və hərəkətə yol verməmdiyi"nə işarə edən ekspertlərlə razılaşmaq olar. Amma respublikada antirusiya əhvalının yüksəlişi görünəndir, Moskvada isə İrəvanın daxili siyasətindəki bəzi yönlərə görə ona münasibətdə heç də müsbət olmayan siyasi fon meydana çıxıb. Habelə istisna deyil ki, Rusiya Dağlıq Qarabağ münaqişəsini tənzimləməkdə siyasi praktikaya yeni yanaşmalar tətbiq etməyə başlayır. Rusiyanın hərbi ekspertləri ideya səsləndiriblər ki, Azərbaycan və Ermənistanın KTMT-də iştirakı "iki ölkə arasında silahlı münaqişə risqini azalda bilər", çünki blok iştirakçıları güc işlətməmək prinsipinə tərəfdar olmalı, öz aralarında və başqa dövlətlərlə bütün fikir ayrılıqlarını dinc yollarla həll etməlidir.

Amma hətta bu prinsipləri gözləyəndə də gec, ya tez münaqişənin qarşılıqlı qəbul edilən tənzimlənməsinə keçilməlidir ki, bu da hələlik yalnız nəzəri səviyyədə, bir də qarşılıqlı siyasi iradənin varlığı zamanı mümkündür. Nə qədər fırladırsan-fırlat, amma Bakı və İrəvanın, əlbəttə, Rusiya da daxil olmaqla, ATƏT Minsk Qrupunun həmsədrləri arasında ehtimal edilən hansısa ziddiyyətləri əsasında oyunları nəticələrə səbəb olmayıb. Dəyişikliklər mümkündür, ancaq ya tarixi miqyasda, ya da Ermənistanda titrəşim verən siyasi dəyişikliklərlə. Bununla yanaşı, Tiflisin Abxaziya və Cənubi Osetiyaya görə barışmaz antirusiya mövqeyi tutduğu Gürcüstandan fərqli olaraq, Bakı Rusiyanın barış prosesində iştirakını dəstəkləyir. Buna görə də Azərbaycanın KTMT-yə üzvlüyü, heç olmasa ona görə məntiqli görünür ki, onun Rusiya ilə Dağıstan sahəsində quru sərhədi (284km), Xəzər dənizi akvatoriyası üzrə qonşuluğu var, bu, Moskva üçün isə artıq Azərbaycan üzərindən Dağlıq Qarabağa çıxmaq variantıdır. Paradoks bundadır ki, Bakıdan savayı Ankara və ola bilsin, Tehran da Rusiyanın Xankəndidə hərbi iştirakında maraqlıdır. Dünyada və bölgədə geopolitik durum hissolunan dərəcədə dəyişilir və bütün daxili və xarici oyunçular qeyri-standart deyilən həllər aramağa başlayıblar. Borisov ilk gedişi göstərib. Sıradakını kim edəcək - Vaşinqton, Ankara, ya Brüssel?". Bu şərhdən də aydın görünür ki, Azərbaycanın KTMT-yə qoşulması sırf Qarabağ məsələsinin həllinə hesablanmış addımdır və elə Ermənistanı da qorxudan budur.

Rusiyalı ekspert Yevgeni Mixaylov qeyd edir ki, istənilən halda Azərbaycan istəsə, Ermənistanın narazılığına baxmayaraq, KTMT-də müşahidəçi statusu alacaq: "Azərbaycan KTMT-də müşahidəçi statusu alsa, bu, postsovet məkanında təhlükəsizliyin əldə edilməsi üçün böyük bir addım ola bilər. Siyasi stabillik və iqtisadi inkişafın hökm sürdüyü Azərbaycan bu təşkilata lazımdır. Bakının öz siyasi kursu var və dünya dövlətləri onunla hesablaşır. Hətta müşahidəçi qismində belə bir müttəfiq əldə etməyə bir çoxları can atır. Fikrimcə, ümumdünya siyasi vəziyyətini nəzərə alsaq, bu, Bakı üçün də vacibdir. Bundan əlavə, müşahidəçi qismində Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş ərazilərini istənilən yolla geri qaytarmağa hazır olduğunu KTMT-yə üzv ölkələrə daha asanlıqla sübut edəcək". Onun sözlərinə görə, Azərbaycanı KTMT-yə istənilən statusla qəbul etməyi düzgün saymayan Ermənistanın mövqeyi sadəcə təəccüb doğurur: "İrəvanın qorxusu əbəsdir. Moskva buna sadəcə şad ola bilər. Məhz Rusiya təşkilatın sponsoru və əsas oyunçusudur. Buna görə də, öz burnundan uzağı görə bilməyən Ermənistanın fikrinə ciddi yanaşmaq lazım deyil. Adi qığılcımın böyük müharibəyə çevrildiyi müasir dünyada bu tip uzağı görə bilməmək adətən təhlükəsizliyin təminatını və dövlətçiliyi itirməklə nəticələnir". O bildirir ki, İrəvan KTMT-yə üzv ölkələrin Azərbaycana silah satması faktından da narazılığını dilə gətirib. Silah və hərbi texnikanı ucuz qiymətə və ya kreditlə əldə edən Ermənistandan fərqli olaraq, Azərbaycan əldə etdiyi texnikaya görə tam ödəniş edir: "Azərbaycana silah satılması barədə İrəvanın küskünlüyü və ittihamları məsələsinə gəldikdə, Ermənistandan fərqli olaraq, Rusiya və KTMT-yə üzv olan digər dövlətlər Azərbaycanla dostluq münasibətindədir. Buna uyğun olaraq da, Moskva lazım olan silah və hərbi texnikanı satmaq hüququna sahibdir. Silah və hərbi texnikanı uzunmüddətli kredit qarşılığında əldə edən İrəvandan fərqli olaraq, Bakı silah və hərbi texnikadan təhlükəsizliyini gücləndirmək üçün istifadə edir. Ermənistan isə Qarabağdakı separatçıları gücləndirir. Azərbaycan heç vaxt kiminsə torpağını işğal etməyib. Bununla yanaşı, ərazilərin geri qaytarılması üzrə dialoqun olmamasına da icazə verməyəcək. Eyni zamanda nəzərə almaq lazımdır ki, silah Moskva və ya KTMT-nin digər üzvlərindən tədarük edilməsə, digər ölkələr asanlıqla bu rolun öhdəsindən gələcək. Buna isə imkan vermək olmaz. Çünki silah satışı təkcə pul və gəlir yox, eyni zamanda müttəfiq münasibətlərinin möhkəmləndirilməsinə yönəlmiş böyük siyasətdir. Halbuki, hazırki erməni hakimiyyəti Amerika fondlarından çox dəstək alıb və bir çox istiqamətlərdə Rusiya əleyhinə ritorikanı asanlıqla qəbul edir. Amerikalılar tərəfindən Ermənistandakı demokratiyanın inkişafına dair müxtəlif proqramlara milyonlarla dollar yatırılıb. Bu isə açıq-aşkar antirusiya meylinə çevrilir və İrəvanın bütün bədbəxtliklərində Moskva günahlandırılır. Mən əvvəllər də demişəm, gələcəkdə də deyəcəm ki, buna əhəmiyyət vermək lazım deyil. Çünki əhəmiyyət verəndə İrəvan özünü önəmli sayır və aldadılmış tərəf kimi təqdim edir". Bütün bunlar qarşıdakı dövr ərzində KTMT olayı ətrafında olduqca maraqlı proseslərin cərəyan edəcəyini deməyə əsas verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**